

# Görkəmli elm və ədəbiyyat xadimləri Məhəmməd Hadi irsi haqqında





**Hənəfi Zeynallı**

Bir Hadinin şeiri ilə, bir Namiq Kamalın şeiri ilə Cavidin şeirini qarşılaşdırdıqda Hadidə Namiqdəki fəvəran edən vulkanlar Caviddə Füzulicəsinə ürəyini qana döndərmək, vətən üçün mərsiyə oxumaq həvəsi bəlli olur.

**Ömər Faiq Nemanzadə**

1902-ci il yanvarın 31-də cümə axşamı gündüz saat 12-də Şamaxıda indiyə qədər görünməmiş yer tərpənişi oldu. Bu gün Şamaxı üçün ən böyük fəlakət, eşidilməmiş bir dəhşət və qiyamət günü idi. Baş vermiş dağıdıcı zəlzələdən sonra bir çox şamaxılılar kimi, M.Hadi də doğma şəhərini tərk etməyə məcbur olmuş, evlərinin ənqazını (tör-töküntü) 200 manata sataraq Kürdəmirə getmiş, ibtidaən bir əttar dükanı açmış isə də, ondan da bir şey çıxmadığını görüncə, ikinci kərə olaraq zərər ilə dükanı qapamışdır.



## Abdulla Şaiq

Hadi qədər hürriyyətə həvəs göstərən bir şair olmamışdır... hər bir əsərində hürriyyəti oxşamadan keçməmişdir.

Hadi məğrur və heç bir qüvvəyə əyilməyən bir şəxsiyyət idi.



## Məmməd Cəfər

Gələcək üçün yaşayıb çırpınan Hadi, gələcək nəsil üçün də yazmağı çox sevirdi.



## Seyid Hüseyn

O, oxuduğu elmlərin kəndisinə heç bir nəticə verməyəcəyini, olsa-olsa mömin bir molla əfəndidən fəzlə bir şey olmayacağına hissi-qəbləlvüqu ilə anladığından İstanbul və Əl-Qahirə kimi islam mədəniyyəti mərkəzlərinə gedib orada təhsil almaq fikrinə düşmüşdü. Mustafa Lütfi... Hadini xarici məmləkətlərə göndərəcək iqtidarı olmadığından Hadi bir neçə zəngin əqrəbasına müraciətdə bulunmuş, təhsil arzusunda olduğunu söyləyib müavinət istəmişsə də, sözünü dinləyən və yardımda bulunan olmamışdı.



## Məmməd Arif

Məhəmməd Hadi romantizmi coşqun və döyüşkən idi.



## Mir Cəlal

Məhəmməd Hadi yaşadığı günlərin və mühitin ən müdhiş mənzərələrindən, ən kədərli lövhələrindən yazanda da bir ümid ilə yaşayır və təsəlli tapır.

Azərbaycan şeirində Nəsimi və Füzulidən belə davam edib gələn milli romantik ənənələrin yeni, müasir romantizmə keçid dövrü Hadi yaradıcılığında öz qiymətli ifadəsini tapmışdır.



## Yaşar Qarayev

XX əsr Azərbaycan şeirində romantizm cərəyanının ən qüdrətli nümayəndələrindən biri Məhəmməd Hadidir. ...Keşməkeşli və faciəvi sonluqla bitən bir ömür sürmüş Hadi türk, Şərq və Avropa ədəbiyyatlarını, fəlsəfəsini dərindən mənimsəmiş və bütün bu təsirləri şeirlərində yaradıcı şəkildə əks etdirərək, orijinal şair kimi ədəbiyyat tariximizdə özünə yer tutmuşdur.

Cavid kimi, Hadinin də vətəni Azərbaycan, milliyyəti türk, zehniyyəti islam və təsəvvüf olub... Təsadüfi deyil ki, öz vətənlərində Hadi və Cavid uzun illər qadağan olunmuş şairlər sırasına məhz “pantürkist” və “panislamist” damğaları ilə düşmüşlər....

“Aydınlıq bir gecədə təfəkkür dəqiqələri”, “Kor soqqur”, “Baharın ilhamları və ictimai rəmzlər”, “Hərarətli şeir və yaxud qızdırmalı halımda saçmalarım” kimi ehtiraslı, klassik fəlsəfi lirika da Hadi şeirində Cümhuriyyət dövrünün ovqatı və məhsuludur. Cümhuriyyətin məhvi Hadinin də şeirinin ovqatında, özünün ruhunda və səhhətində növbəti dəfə əks olunur, bu dəfə artıq son, ölümlə nəticələnən böhran şəklində tragik ifadəsini tapır.



## Elçin

XX əsr Azərbaycan klassik poeziyasında Hadi qədər birbaşa, müstəqim surətdə “vətən” və “millət” ifadələrini işlədən ikinci şair yoxdur və bu ifadələr onun poeziyasını tam, bütöv şəkildə müəyyənləşdirən obrazlara çevrilib.





**Əziz Mirəhmədov**

Məhəmməd Hadi Azərbaycan romantizminin təşəkkül tapıb inkişaf etməsində və dünya romantizmi ilə qovuşmasında başlıca simalardan biridir.

M.Hadi romantizm cərəyanının başçısıdır.

**Mirabbas Aslanov**

M.Hadi XX əsr Azərbaycan ədəbiyyatında romantizm cərəyanının ən görkəmli nümayəndəsi idi.





**Məsud Əlioğlu**

M.Hadinin şəxsi həyatı ilə birgə yaradıcılıq taleyi də, istedadı da aramsız faciələrə məruz qalmışdır. Mənəvi sıxıntı və ruhi məhrumiyyətlər, həyata atıldığı ilk günündən şairin şəxsiyyətini əzib incidən amillər kimi, onun şeirlərinin ruhuna, yaradıcılıq həyatının fikir-məna qaynaqlarına da bədbinliyin ağır və boğucu havasını gətirmişdir.

**Ramiz Rövşən**

Allahın bu dünyaya göndərdiyi şairləri insanlar arasında "Tanrı casusu" sayanlar, bəlkə də, haqlıdı. Bu mənada, təpədən-dırnağacan şair olan Məhəmməd Hadi Tanrının ən sədaqətli "casus"-larından idi.



**Rəfiq Zəka**

M.Hadi nədən yazırsa-yazsın, azadlığı tərənnüm edir.



**Nəriman HƏSƏNZADƏ**

Hadi – "Mənim azadlığım, sanma, çörəkdir, Azərbaycan azadlığı gərəkdir," - deyirdi. Hadi - cümhuriyyət səngərində döyüşən mücahid, yaşadığı zəmanənin üsyan səsiydi.



**Kamal Abdulla**

Görəsən, o, bu gün kimi xatırladır?! Ağlıma gələn böyük rus şairi Brodski olur. Brodskiyə ruhən, nəfəs genişliyi ilə yaxın şairimiz Məhəmməd Hadidir. Amma Məhəmməd Hadi Brodskini zaman baxımından xeyli qabaqlayıb.

Zaman baxımından isə Brodskiyə uyğun gələn şair bizdə yoxdur. Onun yazdığı illərdə bizim ədəbiyyatda sosialist şitilləri cücərirdi. Özü də bolluq və firavanlıq içində. Hadi bura qədər gələ bilmədi. Gəlsəydi belə, onun qələmindən əyri misralar çıxmayacaqdı. Hürriyyət, azadlıq, istiqbal, həqiqət aşiqi Hadi sosialist şairləri ilə bir sırada dayanıb onlarla bir istiqamətə baxa bilməyəcəkdi. Onun üçün də o, bu gün yaşayır. Şəxsiyyətinə, sənətinə bəslənən böyük məhəbbətlə yaşayır.